# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında balıqçılıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" 1999-cu il 6 sentyabr tarixli 146 nömrəli, "Cəza çəkmədən azad edilmiş şəxslərin ərzaq, geyim, ayaqqabı ilə təmin olunması, onlara gediş haqqının ödənilməsi, həmçinin birdəfəlik pul müavinətinin verilməsi Qaydasının təsdiq edilməsi haqqında" 2001-ci il 5 aprel tarixli 76 nömrəli, "Uşaqlar üçün valideynlərinin aliment tutulan, manat və xarici valyuta ilə aldıqları əmək haqqının və (və ya) başqa gəlirlərinin növlərinin müəyyən edilməsi barədə" 2001-ci il 23 may tarixli 98 nömrəli, "Atmosfer havasına atılan zərərli maddələrin və ona zərərli fiziki təsirlərin dövlət uçotu Qaydaları"nın, "Atmosfer havasına zərərli maddələrin atılmasına və zərərli fiziki təsirlərə xüsusi icazənin verilməsi Qaydaları"nın və "Atmosfer havasına zərərli maddələrin atılmasına və zərərli fiziki təsirlərə xüsusi icazə alınmasına görə ödəmələrin miqdarı və istifadə olunması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2002-ci il 13 iyul tarixli 112 nömrəli və "Heyvanlar aləminin mühafizəsi və istifadəsi sahəsində dövlət nəzarətinin həyata keçirilməsi qaydaları", "Heyvanlar aləmindən istifadəyə görə ödəmələrin növləri, dərəcələri, tətbiq edilmə qaydaları və qeyri-qanuni heyvan ovuna cərimələr" və "Heyvanlar aləmi obyektlərindən istifadəyə görə ödənişlərin və qeyri-qanuni vəhşi heyvan ovuna görə cərimələrin istifadəsinə dair Təlimat"ın təsdiq edilməsi haqqında" 2004-cü il 6 noyabr tarixli 176 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 6 sentyabr tarixli 146 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 9, maddə 556; 2005, № 1, maddə 49, № 6, maddələr 540, 555, 558; 2006, № 4, maddə 370; 2012, № 5, maddə 474; 2014, № 11, maddə 1508; 2015, № 7, maddə 876, № 10, maddə 1223; 2016, № 9, maddə 1597) ilə təsdiq edilmiş “Balıq və digər su bioresurslarından istifadəyə görə ödəmələrin növləri, dərəcələri, tətbiq edilmə qaydaları və balıq və digər su bioresurslarının qeyri-qanuni ovuna cərimələr”in 10-cu hissəsi aşağıdakı redaksiyada verilsin:

“10. Ölçüsündən və çəkisindən asılı olmayaraq bir ədəd balıq, su heyvanı və onurğasıza vurulmuş ziyan aşağıdakı məbləğdə (manatla) müəyyən edilir:

| | |
|---|---|
| a) Balıq və digər su bioresursları | |
| “Qırmızı kitaba” daxil edilmiş balıq, su məməliləri və su onurğasızları növləri (kələmo, dəniz sıfı, poru, zərdəpər, Xəzər qızılbalığı, qılıncbalıq, Şirvan külməsi, Xəzər şirbiti, Pilzov çay xərçəngi və Xəzər suitisi, qızıl xallı) | 275 |
| bölgə | 247,5 |
| nərə, uzunburun, ağ qızılbalıq | 220 |
| xəşəm, kütüm, sıf, şirbit, şamayı, ağ amur, enlialın | 33 |
| çəki, karp, qarabel siyənəyi | 22 |
| naxa, durna balığı, kefal, çapaq, külmə, qarasoy, xramulya, dabanbalığı, xanı balığı, ilanbalığı və siyənəyin digər növləri | 11 |
| kilkə (1 kq) | 0,55 |
| b) Kürü (1 kq) | |
| bölgə, kələmo, nərə, uzunburun | 220 |
| ç) Su onurğasızları | |
| xərçəng | 1,1 |
| krevet | 0,55 |
| d) Dövlət qoruqlarında və digər xüsusi mühafizə olunan ərazilərdə qanunsuz ovlanmış və ya məhv edilmiş balıq və digər su bioresursları üçün cərimələr üç qatına tutulur. | |

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 5 aprel tarixli 76 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 4, maddə 285) ilə təsdiq edilmiş “Cəza çəkməkdən azad edilmiş şəxslərin ərzaq, geyim, ayaqqabı ilə təmin olunması, onlara gediş haqqının ödənilməsi, həmçinin birdəfəlik pul müavinətinin verilməsi Qaydası”nın 2-ci hissəsinin ikinci cümləsində “şərti maliyyə vahidinin bir misli həcmində” sözləri “1 manat 10 qəpik” sözləri ilə və 3-cü hissəsində “şərti maliyyə vahidinin on misli həcmində” sözləri “11 manat” sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 23 may tarixli 98 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 5, maddə 348; 2004, № 9, maddə 747; 2005, № 12, maddə 1244; 2006, № 9, maddə 819; 2007, № 2, maddə 185; 2008, № 8, maddə 780; 2009, № 10, maddə 857; 2017, № 9, maddə 1739, № 12 (II kitab), maddə 2549; 2020, № 10, maddə 1269) ilə təsdiq edilmiş “Uşaqlar üçün valideynlərinin aliment tutulan, manat və xarici valyuta ilə aldıqları əmək haqqının və (və ya) başqa gəlirlərinin növləri”nin 3-cü hissəsinin ikinci abzasında “Ayda qanunvericiliklə müəyyən edilmiş şərti maliyyə vahidinin 5 misli məbləğindən çox pul təminatı alan müddətli” sözləri “Müddətli” sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 13 iyul tarixli 112 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 7, maddə 450; 2017, № 12 (II kitab), maddə 2499) ilə təsdiq edilmiş “Atmosfer havasına zərərli maddələrin atılmasına və zərərli fiziki təsirlərə xüsusi icazə alınmasına görə ödəmələrin miqdarı və istifadə olunması Qaydaları”nın 2-ci hissəsinin ikinci abzasında “şərti maliyyə vahidinin 720 misli” sözləri “792 manat” sözləri ilə, üçüncü abzasında “şərti maliyyə vahidinin 360 misli” sözləri “396 manat” sözləri ilə, dördüncü abzasında “şərti maliyyə vahidinin 180 misli” sözləri “198 manat” sözləri ilə və beşinci abzasında “şərti maliyyə vahidinin 90 misli” sözləri “99 manat” sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 6 noyabr tarixli 176 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 964; 2014, № 2, maddə 201; 2016, № 5, maddə 955) ilə təsdiq edilmiş “Heyvanlar aləmindən istifadəyə görə ödəmələrin növləri, dərəcələri, tətbiq edilmə qaydaları və qeyri-qanuni heyvan ovuna cərimələr”in 2.1-ci, 2.6-cı, 3.1-ci və 3.5-ci bəndləri aşağıdakı redaksiyada verilsin:

“2.1. Heyvanlar aləmindən istifadəyə görə ödəmələrin növləri və dərəcələri aşağıdakı kimi müəyyən edilir:

| Sıra №-si | Vəhşi heyvanların adı | Bir baş vəhşi heyvanın vurulması (tutulması) üçün ödəmə (manatla) |
|---|---|---|
| **1** | **2** | **3** |
| **1.** | **Dırnaqlılar dəstəsi** | |
| | ceyran, maral, muflon, bezoar keçi, qarapaça | 55 |
| | Dağıstan turu | 24,75 |
| | çöldonuzu | 16,5 |
| | cüyür | 16,5 |
| **2.** | **Yırtıcılar dəstəsi** | |
| | bəbir | 550 |
| | vaşaq, manul pişiyi | 550 |
| | qonur ayı | 24,75 |
| | çölpişiyi | 33 |
| | qamış və meşə pişikləri | 22 |
| | meşə və daşlıq dələləri | 3,96 |
| | gəlincik, porsuq | 5,5 |
| | yenot | 1,65 |
| | tülkü | 5,5 |
| | canavar | 5,5 |
| | çaqqal | 3,96 |
| **3.** | **Gəmiricilər dəstəsi** | |
| | oxlu kirpi | 5,5 |
| | bataqlıq qunduzu (nutriya) | 1,65 |
| | sincab | 5,5 |
| **4.** | **Dovşankimilər dəstəsi** | 1,10 |
| **5.** | **Həşəratyeyənlər və yarasalar dəstəsi** | 1,10 |
| **6.** | **Toyuqkimilər dəstəsi** | |
| | Qafqaz və Xəzər uları | 11 |
| | Qafqaz tetrası, turac | 11 |
| | Zaqafqaziya qırqovulu | 2,53 |
| | talış qırqovulu | 11 |
| | boz kəklik | 1,265 |
| | gözəl kəklik | 1,265 |
| | bildirçin | 0,154 |
| **7.** | **Göyərçinkimilər dəstəsi** | |
| | Qaraqarın bağrıqara | 11 |
| | alabaxta | 0,308 |
| | digər növlər | 0,154 |

| 1 | 2 | 3 |
|---|---|---|
| **8.** | **Durnakimilər dəstəsi** | |
| | sultan toyuğu | 11 |
| | çivdimdik | 11 |
| | qaşqaldaq, qamışlıq fərəsi, porzan, xırda porzan, cırtdan porzan, su fərəsi | 0,308 |
| | ağ durna | 22 |
| | boz durna, qəşəng durna | 16,5 |
| | dovdaq, qəşəng dovdaq | 22 |
| | bəzgək | 11 |
| **9.** | **Çovdarçıkimilər dəstəsi** | |
| | qırıldayan cüllüt | 11 |
| | ağquyruq çökükburun | 11 |
| | tənbəl bekas | 11 |
| | kiçik kronşnep | 11 |
| | çölhaçaquyruq cüllütü | 11 |
| | cüllütkimilərin digər növləri | 0,308 |
| **10.** | **Qağayılar fəsiləsi** | 1,10 |
| **11.** | **Qağayıkimilər dəstəsi** | 1,10 |
| **12.** | **İyrəncəkimilər dəstəsi** | 0,33 |
| **13.** | **Qazkimilər dəstəsi** | |
| | qu quşları, qırmızıdöş qaz, ağqaş qaz | 11 |
| | qazlar (boz və ağalın) | 2,53 |
| | mərmər cüro, ağgöz və göydimdik ördək | 11 |
| | cürələr | 0,308 |
| | digər ördək növləri | 0,99 |
| **14.** | **Kürəkayaqlıkimilər dəstəsi** | |
| | qutanlar | 11 |
| | qarabataqlar | 0,22 |
| **15.** | **Qızılqazkimilər dəstəsi** | |
| | qızılqaz | 11 |
| **16.** | **Leyləkkimilər dəstəsi** | |
| | ərsindimdik, qara leylək | 11 |
| | ağ leylək | 5,5 |
| | qarıldaq, dan quşları, qaranaz, Misir vağı, müqəddəs ibis və vağların digər növləri | 5,5 |
| **17.** | **Yırtıcılar dəstəsi** | |
| | Qafqaz şahini, ütəlgi, Aralıq dənizi qızılquşu, çay qaraquşu, ağquyruq dəniz qartalı, tetraçalan, Türküstan tüvüyü, çölqartalı, məzar qartalı, berkut, toğlugötürən, ilanyeyən, böyük qartalça, qara kərkəs, çölbelibağlısı, çölmuymulu | 220 |

| 1 | 2 | 3 |
|---|---|---|
| | arıyeyən, qırmızı çalağan, qara çalağan, uzunquyruq dənizqartalı, bildirçinçalan, tülküayaq sar, çölsarı, adi sar, cırtdan qartal, kiçik qartalça, leşyeyən, ağbaş kərkəs, tarla belibağlısı, çəmənlik belibağlısı, qamışlıq və ya bataqlıq belibağlısı, adi muymul, derbnik, kərkincək, qaragöz | 55 |
| **18.** | **Bayquşkimilər dəstəsi** | |
| | iri yapalaq, adi yapalaq, bataqlıq bayquşu, qulaqlı bayquş, dam bayquşu, meşə bayquşcuğu | 1,10 |
| **19.** | **Quququşukimilər dəstəsi** | 1,10 |
| **20.** | **Keçisağankimilər dəstəsi** | 1,10 |
| **21.** | **Uzunqanadlılar dəstəsi** | 0,55 |
| **22.** | **Göycəqarğakimilər dəstəsi** | 0,33 |
| **23.** | **Ağacdələnkimilər dəstəsi** | 0,11 |
| **24.** | **Sərçəkimilər dəstəsi** | |
| | ağboğaz bülbül, səhra qarquşu, hirkan anquşu | 11 |
| | sərçəkimilərin digər növləri | 0,22 |
| **25.** | **İlanlar** | 5,5 |
| | gürzə | 11 |
| **26.** | **Kərtənkələlər** | 0,55 |
| **27.** | **Tısbağalar** | 0,55 |
| | Aralıq dənizi tısbağası | 1,10 |
| **28.** | **Qurbağalar, tritonlar** | 0,22 |
| **29.** | **Tibb zəlisi** | 0,055 |
| **30.** | **Siyahıda adı göstərilməyən bütün fauna növləri üçün** | 1,10 |

2.6. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən vəhşi heyvanların (Azərbaycan Respublikasının “Qırmızı Kitabı”na və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının “Qırmızı Siyahısı”na düşmüş vəhşi heyvan növləri istisna olmaqla) ovlanmasının (tutulmasının) qiyməti və ov qənimətinin dəyəri aşağıdakı kimi müəyyən edilir:

| **Sıra №-si** | **Vəhşi heyvanların adı** | **Bir baş vəhşi heyvanın vurulması (tutulması) üçün ödəmə (manatla)** | **Ovlanmış bir baş ov heyvanı üçün ov qənimətinin qiyməti (manatla)** |
|---|---|---|---|
| **1** | **2** | **3** | **4** |
| 1. | Dağıstan turu | 24,75 | 803 |
| 2. | Qonur ayı | 24,75 | 803 |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 3. | Çöldonuzu | 16,5 | 220 |
| 4. | Tülkü | 39,6 | - |
| 5. | Çaqqal | 39,6 | - |
| 6. | Boz dovşan | 24,75 | - |
| 7. | Qazlar | 4,95 | - |
| 8. | Ördəklərin bütün növləri və qaşqaldaq | 1,001 | - |
| 9. | Kəklik | 4,95 | - |
| 10. | Meşə cüllütü, böyük və ortaboy kronşnep | 1,001 | - |
| 11. | Zaqafqaziya qırqovulu | 4,95 | - |
| 12. | Göyərçinkimilər dəstəsi | 0,495 | - |
| 13. | Sərçəkimilər dəstəsi | 0,495 | - |

3.1. Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı Siyahısı"na daxil edilmiş vəhşi heyvan növlərinin qeyri-qanuni ovu üçün təbiətə dəymiş ziyana görə cərimələr aşağıdakı qaydada müəyyən edilir:

| **Sıra №-si** | **Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı Siyahısı"na düşmüş nadir heyvan növlərinin (yarımnövlərinin) adı** | **Yaşından, ölçüsündən və çəkisindən asılı olmayaraq bir baş vəhşi heyvan üçün ziyanın miqdarı (manatla)** |
|---|---|---|
| **1** | **2** | **3** |
| **1.** | **Məməlilər** | |
| | adi uzunqanad | 110 |
| | cənub nalburunu | 110 |
| | enliqulaq bükükdodaq | 110 |
| | zolaqlı kaftar | 1100 |
| | çay samuru | 220 |
| | sarıqlı safsar | 110 |
| | manul pişiyi | 550 |
| | çölpişiyi | 220 |
| | vaşaq | 2200 |
| | bəbir | 3300 |
| | turan pələngi | 4400 |
| | ceyran | 550 |
| | köpgər (qarapaça) | 550 |
| | bezoar keçisi | 550 |

| 1 | 2 | 3 |
|---|---|---|
| | mulfon | 550 |
| **2.** | **Quşlar** | |
| | qıvrımlələk qutan | 550 |
| | çəhrayı qutan | 550 |
| | ərsindimdik | 550 |
| | qara leylək | 550 |
| | qızılqaz | 550 |
| | kiçik qu | 550 |
| | fısıldayan qu | 550 |
| | ağqaş qaz | 550 |
| | qırmızıdöş qaz | 550 |
| | mərmər cürə | 330 |
| | ağgöz ördək | 330 |
| | göydimdik ördək | 330 |
| | çay qaraquşu | 330 |
| | ağquyruq dəniz qartalı | 330 |
| | iri qırğı (tetraçalan) | 330 |
| | Türküstan tuviyi (Orta Asiya tuviyi) | 330 |
| | çölqartalı | 330 |
| | iri qartalça | 330 |
| | məzar qartalı | 550 |
| | berkut | 550 |
| | toğlugötürən | 550 |
| | qara kərkəs | 330 |
| | ilanyeyən | 330 |
| | çölbelibağlısı | 330 |
| | çölmuymulu | 330 |
| | utəlgi (baloban) | 770 |
| | Qafqaz şahini | 1100 |
| | Xəzər uları | 330 |
| | Qafqaz uları | 330 |
| | turac | 330 |
| | talış qırqovulu | 550 |
| | Qafqaz tetrası | 550 |
| | çivdimdik | 110 |
| | sultan toyuğu | 330 |
| | ağ durna | 550 |
| | dovdaq | 550 |
| | qəşəng dovdaq | 550 |
| | bəzgək | 330 |

| 1 | 2 | 3 |
|---|---|---|
| | qırıldayan cüllüt | 110 |
| | ağquyruq çökükburun | 110 |
| | tənbəl bekas | 110 |
| | kiçik kronşnep (əyridimdik) | 110 |
| | çölhaçaquyruq cüllütü | 110 |
| | qaraqarın bağrıqara | 330 |
| | hirkan anquşu | 110 |
| | səhra qarquşu | 110 |
| | ağboğaz bülbül | 110 |
| **3.** | **Suda-quruda yaşayanlar** | |
| | adi quru qurbağası | 11 |
| | Qafqaz xaçlıcası | 22 |
| | adi triton | 22 |
| | daraqlı triton | 22 |
| | Suriya sarımsaqiyli qurbağası | 33 |
| **4.** | **Sürünənlər** | |
| | xarabalıq kələzi | 55 |
| | Kiçik Asiya gürzəsi | 82,5 |
| | eskulap ilanı | 82,5 |
| | qızılı mabuya | 55 |
| | girdəbaş yovşanlıq kərtənkələsi | 55 |
| | Zaqafqaziya təlxəsi | 66 |
| | zolaqlı çılpaqgöz kərtənkələ | 55 |
| | qarabaş rinxokalamus | 66 |
| | oxilan | 55 |
| | Aralıq dənizi tısbağası | 66 |
| **5.** | **Həşəratlar** | |
| **6.** | **Kəpənəkkimilər dəstəsi** | |
| | Şərqi Aleksanor yelkənciyi | 55 |
| | adi appolon | 55 |
| | Nordman appolonu | 55 |
| | talış məxməri kəpənəyi | 55 |
| | Komarov hafı | 55 |
| | kəlləşəkilli haf | 55 |
| | oleandr hafı | 55 |
| | iri tənək hafı | 55 |
| | talış bromeyası | 55 |
| | hilata | 55 |
| | avrorına sarıcası | 55 |
| | Alp sarıcası | 55 |

| 1 | 2 | 3 |
|---|---|---|
| | Qafqaz sarıcası | 55 |
| | kürd sarıcası | 55 |
| | Qafqaz zerintiyası | 55 |
| | şəfəqsaçan | 55 |
| | talış yangözcüklüyü | 55 |
| | tutqun ayıça | 55 |
| | tamara alacası | 55 |
| | Aleksandra sədəflisi | 55 |
| | İoniya bərqvuranı | 55 |
| | Alp satiri | 55 |
| | Romanov tomaresi | 55 |
| | xrizip | 55 |
| | Oxim qızılı kəpənəyi | 55 |
| | Eyfema | 55 |
| **7.** | **Böcəkkimilər dəstəsi** | |
| | üçpərli talış qaçağanı | 55 |
| | Qafqaz ilbizyeyən fıqırdarı | 55 |
| | palıd diserkası | 55 |
| | qəşəng böcək | 55 |
| | Solomon qızılböcəyi | 55 |
| | Klit Reyter | 55 |
| | talış kökyeyəni | 55 |
| | Xəzər parandrası | 55 |
| | Alp rozaliyası | 55 |
| | Ferrat çapağanı | 55 |
| | Skovito uzunbığı | 55 |
| | tündqırmızı talış uzunbığı | 55 |
| **8.** | **Zolaqlı arılar** | |
| | Dağıstan zolaqlı arısı | 55 |
| | Mlokoseviç zolaqlı arısı | 55 |
| | fars zolaqlı arısı | 55 |
| | Porçinski zolaqlı arısı | 55 |

3.5. Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı Siyahısı"na daxil olmayan heyvan növlərinin qeyri-qanuni ovu üçün təbiətə dəymiş ziyana görə cərimələr aşağıdakı kimi müəyyən edilir:

| Sıra №-si | Azərbaycan Respublikasının “Qırmızı Kitabı”na və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının “Qırmızı Siyahısı”na daxil olmayan vəhşi heyvan növlərinin (yarımnövlərinin) adı | Yaşından, ölçüsündən və çəkisindən asılı olmayaraq bir baş vəhşi heyvan üçün ziyanın miqdarı (manatla) |
|---|---|---|
| **1** | **2** | **3** |
| 1. | Qulaqlı kirpi | 3,3 |
| 2. | Boz dovşan | 11 |
| 3. | Adadovşanı | 11 |
| 4. | Sincab | 11 |
| 5. | Süleysin | 11 |
| 6. | Tirəndaz (oxlu kirpi) | 11 |
| 7. | Bataqlıq qunduzu (nutriya) | 22 |
| 8. | Tülkü | 11 |
| 9. | Canavar | 11 |
| 10. | Çaqqal | 11 |
| 11. | Gəlincik | 11 |
| 12. | Meşə və daşlıq dələləri | 55 |
| 13. | Porsuq | 16,5 |
| 14. | Qonur ayı | 440 |
| 15. | Qamış pişiyi | 55 |
| 16. | Meşə pişiyi | 77 |
| 17. | Çöldonuzu | 220 |
| 18. | Nəcib və xallı marallar | 330 |
| 19. | Cüyür | 220 |
| 20. | Dağıstan turu | 275 |
| 21. | Həşəratyeyənlərin və yarasaların digər növləri | 3,3 |
| 22. | Ağdöş və qaradöş qaqara | 11 |
| 23. | İyrəncəkimilərin bütün növləri | 3,3 |
| 24. | Böyük qarabatdaq | 11 |
| 25. | Böyük və kiçik danquşu | 11 |
| 26. | Qarıldaq | 11 |
| 27. | Misir vağı | 16,5 |
| 28. | Vağların digər növləri | 5,5 |
| 29. | Qaranaz | 11 |
| 30. | Ağ leylək | 22 |
| 31. | Harayçı qu quşu | 33 |
| 32. | Boz və ağalın qaz | 22 |
| 33. | Ördəklərin bütün növləri | 5,5 |
| 34. | Yırtıcı quşların bütün növləri | 5,5 |
| 35. | Zaqafqaziya qırqovulu | 22 |

| 1 | 2 | 3 |
|---|---|---|
| 36. | Kəklik | 11 |
| 37. | Bozkəklik | 11 |
| 38. | Bildirçin | 3,3 |
| 39. | Qaşqaldaq | 5,5 |
| 40. | Sığırçınların digər növləri | 5,5 |
| 41. | Boz və qəşəng durna | 22 |
| 42. | Çobanaldadan | 11 |
| 43. | Çovdarçılar, haçaquyruq cüllütlər | 11 |
| 44. | Qağayılar | 16,5 |
| 45. | Göyərçinlər | 5,5 |
| 46. | Ququ quşu | 3,3 |
| 47. | Keçisağan | 5,5 |
| 48. | Bayquşkimilərin bütün növləri | 5,5 |
| 49. | Uzunqanadlıların bütün növləri | 5,5 |
| 50. | Qaranquşların bütün növləri | 5,5 |
| 51. | Balıqçıllar | 5,5 |
| 52. | Qızılı və yaşıl qızlarquşu | 5,5 |
| 53. | Göycəqarğa | 3,3 |
| 54. | Şanapipik | 5,5 |
| 55. | Ağacdələnkimilərin bütün növləri | 11 |
| 56. | Sərçəkimilərin bütün növləri | 5,5 |
| 57. | Gürzə | 88 |
| 58. | İlanların digər növləri | 33 |
| 59. | Tısbağalar | 3,3 |
| 60. | Qurbağalar, kərtənkələlər | 2,2 |
| 61. | Tibb zəlisi | 0,55 |
| | **Qeyd.** Bu siyahıda adları göstərilməyən qalan bütün fauna növləri | 2,2 |
| | Suda üzən quşların kütləvi surətdə tutulması | 22 |
| | Ov quşlarının və faydalı quşların yuvalarından götürülmüş hər yumurtası üçün | 2,2 |

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 3 may 2021-ci il

№ 128